AYTƏN ALLAHVERDİYEVA
Azərbaycan Dillər Universitetinin dosenti, fil.ü.f.d.
allahverdiyeva.aytan@adu.edu.az

UOT - 811.111

QLOBALLAŞMA VƏ DİL SİYASƏTİ

Xülasə

Məqalədə müasir qloballaşma prosesinin dil siyasətinin formalaşması və həyata keçirilməsinə təsiri və nəticələri araşdırılır. Burada qloballaşan dünyada dillərin statusunu və bütövlüyünü qorumaq üçün adekvat dil siyasətinin hazırlanmasının aktual bir mövzu olması vurğulanır. Müasir ingilis dilinin və geniş vüsət almış miqrasiyanın təsiri altında Avropa dillərinin inkişafındakı ümumi tendensiyalar təhlilə cəlb olunur. Həmçinin, akademik və məişət diskurslarında təzahür edən qlobalist və antiqlobalist meyillər və dil siyasətinə yeni yanaşmanın - dil fəlsəfəsinin yaranması burada toxunulan məsələlərdəndir.

Nəticə etibarilə qloballaşmanın yaratdığı proseslər və yeni geosiyasi şərait nəzərə alınmaqla dil siyasətinin nəzəri əsaslarının yenilənməsinə ehtiyac olduğu qənaəti hasil edilir. Belə ki, sürətli miqrasiya proseslərinin, sosial qrupların diasporlaşmasının və etnik səciyyə əldə etməsinin, dil vasitəsilə kommunikasiyanın intensivləşməsinin, aparıcı dillərdə danışanların sosial bazasında baş verən dəyişikliklərin, bu bazada artan bərabərsizliyin və "hibridləşmə"nin qlobal və milli dil siyasətinə bilavasitə təsir edən amillər olduğu fikri irəli sürülür. Beləliklə, dil siyasətinin tədqiqi zamanı artan linqvistik mülahizələrin, dilə yeni sosial-fəlsəfi yanaşmanın, dilin "postmilli dünyada" rolunun və yerinin, habelə bu məsələnin siyasi mahiyyətinin nəzərə alınmalı olduğu qeyd edilir.

Açar sözlər: *dil siyasəti, qloballaşma, yeni dil modeli, linqvistik suverenlik.*

Giriş.

Dil siyasəti *"dil ünsürlərinin mövcud funksional təsnifatında dəyişiklik etmək və ya mövcud təsnifatı mühafizə etmək, yeni dil normalarını tətbiq etmək və mövcud dil normalarını mühafizə etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər məcmusudur"* (Швейцер, Никольский, 1978: 117).

Bu gün qloballaşmanın yaratdığı proseslər və yeni geosiyasi şəraiti nəzərə alsaq, dil siyasətinin nəzəri əsaslarının yenilənməsinə zərurət vardır. Bu vəzifənin aktuallığı empirik səciyyə daşıyır və bu istiqamətdə aparılmış tədqiqatlar nəticəsində üçkomponentli linqvistik qloballaşma modeli sosiolinqvistik, linqvoantropoloji və sosiokonstruktivist təsvir parametrləri vasitəsilə "ölçülür". Bununla yanaşı, qloballaşmanın semiotik komponenti kimi dil (diskurs) haqqında elmi fikirlər irəli sürülmüş, qlobal aləmdə dilin xassələri haqqında nəzəri fikirlər ümumiləşdirilmiş və sistemləşdirilmişdir. Yeni dil fəlsəfəsinin bəzi aspektləri xalqlar, milliyyət və milli dil haqqında təsəvvürlərin dinamikası nəzərə alınmaqla qlobal sosial-mədəni və siyasi transformasiyalar kontekstində təsvir edilmişdir. Həyata keçirilmiş daha əhəmiyyətli məsələlərdən biri də "qloballaşma və dil" problemi ətrafında yeni bilik zonasının formalaşmasını əks etdirən kateqorial-konseptual şəbəkənin əsaslarının yaradılması, dil və qloballaşma arasındakı əlaqənin öyrənilməsinə yanaşmaların sistemləşdirilməsidir.

Beləliklə, sözügedən yeni dil modelinin yaradılması problemi gündəmdədir və onun həlli dinamikası qloballaşma və texnoloji dəyişikliklər dövründə sürətlənmişdir (Гриценко, 2011; Гриценко, Кирилина, 2011; Кирилина, 2013; Кирилина, Гриценко, Лалетина, 2012)..

Müsbət hal olmasa belə, aparılmış tədqiqatların ən mühüm nəticəsi qloballaşma və transmilli ekspansiya ilə səciyyələnən yeni geosiyasi şəraitdə lokal millətçilik prosesinin sürətlənməsindən, ingilis dilinin kommunikativ cəhətdən güclənməsi sayəsində bir sıra Avropa dövlətlərinin mədəni və linqvistik suverenliyinin və regional dillərin risk altında olmasından, bu dillərin mövqeyinin zəif-

ləməsi və dil konseptlərinin siyasiləşdirilməsi yolu ilə mədəniyyətlərin və etnik qrupların nəzəri "inkarı"nın baş verməsindən ibarətdir. Bu nəticə qloballaşma və yeni geosiyasi çağırışlar şəraitində Avropanın qeyri-ingilis dillərinə münasibətdə proteksionist dil siyasətinin əsaslarını nəzəri cəhətdən əsaslandırılmasına və inkişaf etdirilməsinə ehtiyac olduğunu nümayiş etdirir. Bu əsaslandırma, eyni zamanda rəsmi dilləri yüksək kommunikativlik dərəcəsinə, inkişaf etmiş yazılı standarta, zəngin ədəbi irsə, çoxlu sayda dil daşıyıcılarına və müxtəlif fəaliyyət sahələrinə malik olan Avropanın iri, iqtisadi və mədəni cəhətdən inkişaf etmiş ölkələrində sosial-linqvistik vəziyyəti xarakterizə edən oxşar xüsusiyyətləri də əhatə edir. R.Filipson bu xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirir (Phillipson, 2004):

- qlobal ingilis dilinin geniş yayılması və onun yayıldığı ölkələrin dillərinə təsiri;
- ingilis dilinin bütün digər dillərə qarşı çıxması ilə bu dillərin qlobal ingilis dilinə qarşı müxalifliyinin nəticəsində "qeyri-ingilis dilləri" termininin, "qatil dil", "tiranozavr dil", "linqvistik imperializm" və və hətta "linqvistik soyqırım" (linguicide) kimi pessimist metaforlarının yaranması;
- yalnız elmi ictimaiyyətin deyil, adi vətəndaşların ana dili ilə ingilis dil arasındakı təmaslarına diqqət yetirdiyi üçün anglo-amerikanizmlərin hökmranlığından narazılığı.

B.Hapauf bu hadisəni "dilin batırılması" (submergence) adlandıraraq, yüksək kommunikativ statusa malik dillərin bir sıra sahələrdən (məsələn, elmi və beynəlxalq ünsiyyətdən) sıxışdırıldığını, eləcə də aşağı səviyyəli dillərlə yüksək kommunikativ statusa malik dillər arasında dil təmaslarının inkişafında oxşarlığın artmasını qeyd edir (Hüppauf, 2004: 4).

Bəzi dilçilər isə dəyişən şərtlərdə mövcud dillərin yeni formalarının yaranmasından və onların inkişaf tempinin sürətlənməsndəni, eləcə də dilin həyatında baş vermiş, ancaq ötüb keçmiş hadisələrin elmi təsbiti və təhlili üçün yeni texniki imkanların yaranmasından bəhs edirlər (Карауλов, 1991; Мустайоки, 2013). Tədqiqatçılar vurğulayırlar ki, "əsas" Avropa dilləri xüsusilə biznes, beynəlxalq əlaqələr, ticarət, idman, dəb, asudə vaxt və əyləncə sahələrində öz funksiyalarını itirməkdədirlər (Ammon, 2010; Braselmann, 2004; Phillipson, 1992; The Handbook of Language and Globalization, 2010).. Dünya üzrə kommersiya danışıqlarının təxminən 80%-i ingilis dilində həyata keçirilir və bu, beynəlxalq ticarətdə iştirak üçün zəruri şərtdir (Braselmann, 2004: 100).

Hazırda dil qanunvericiliyi ilə bağlı məsələlər ciddi çətinliklər yaradır. Böyük Avropa ölkələrində dil qanunları çox vaxt Litva, Latviya, Polşa və sair gənc dövlətlər ilə müqayisədə daha aşağı sosial nüfuza malikdir, orada daha çox pozulur və ya yumşaltmalar vasitəsilə, yaxud 2002-ci ildə Fransada Tubon qanunu ilə baş verdiyi kimi - bazara fayda vermək naminə dəyişdirilir.

Müxtəlif ölkələrdə dilin inkişafının müasir tendensiyalarının müxtəlif "qloballaşma müvəkkilləri" tərəfindən qiymətləndirilməsində müşahidə olunan uyğunsuzluq xüsusi maraq doğurur (Fairclough, 2006). Əvvəla, bu, elmi ictimaiyyətin və qeyri-institusional dairələrin (qeyri-dövlət strukturlarından tutmuş ayrı-ayrı fərdlərədək) qiymətləndirmələrindəki uyğunsuzluğun inikasıdır, başqa sözlə, "rəsmi" elmi şərh ilə sıravi dil daşıyıcılarının dərketməsi arasındakı uyğunsuzluqdur. Bunun nəticəsi olaraq ana dilinin qorunması üçün qeyri-institusional tədbirlərin - dilin qorunması üzrə ictimai birliklərin yaradılması (məsələn, Almaniyada "Verband Deutsche Sprache" ("Alman Dili Birliyi")), şəbəkə təşəbbüslərinin artması - internet layihələrinin yaradılması (məsələn, B.Mrotsek layihəsi və ya L.Lemnitserin "Wortwarte" ("Neologizmlər") layihəsi) zərurəti yaranır.

Avropa dövlətlərinin dil siyasətinin qeyri-adekvat səciyyə daşıması da Avropa dillərinin tənəzzülünə səbəb olan amillərdəndir. Avropa Birliyi daxilində çoxdilliliyin təmin edilməsi *"təəccübə səbəb olacaq dərəcədə az elmi interpretasiyaya məruz qalır və olduqca nadir hallarda akademik tədqiqat obyektinə çevrilir"* (Phillipson, 2004: 51) . Məhz bu müəllif 1992-ci ildən diqqəti "kiçik" dillərlə yanaşı Avropanın daha "böyük" (inkişaf etmiş) dillərinə dağıdıcı təsir göstərən dil imperializmi fenomeninə yönləndirir (Phillipson, 1992:17).

90-cı illərin əvvəllərindən Avropa ölkələrində müxtəlif qurumlar və birliklər çoxdilliliyi dəstəkləməyə başladı və 1992-ci ildə qəbul edilmiş Avropa Xartiyası buna bariz nümunədir. Bundan əlavə, müasir ikidillilik konsepsiyası hətta yüksək kommunikativlik dərəcəsinə malik olan Avropa dillərinin qorunması üçün tərtib edilmiş "Tutsinq tezisləri" adlı proqramda təqdim olunur (http://www. germanistenverband.de/aktiv/tutzing.html). Bununla belə, həmin tədbirlər vəziyyətə az

təsir edir. Dil siyasəti pərakəndə və sistemsiz səciyyəyə malik olduğu üçün ingilis dili istisna olmaqla Avropa dilləri üçün risklər daha da artır: "*Dil siyasətinin milli və ya fövqəl-milli bazar qüvvələrinin öhdəsinə buraxılması daha çox ingilis yönümlü və daha az milli yönümlü addıma bərabərdir"* (Phillipson, 2004: 543).

İngilis dili kommunikativ cəhətdən güclü dilləri sıxışdırmaqla yanaşı, onları bir növ "yadlaşdırır". Hətta səsləndirilməməsinə baxmayaraq, belə bir dil fəlsəfəsi çox vaxt açıq şəkildə dil siyasətinin əsasını təşkil edir. Məsələn, 2012-ci ildə Rusiya İnformasiya Agentliyi (РИА Новости) ÜTT-yə üzvlük haqqında protokol kimi əhəmiyyətli bir sənədin rus dilinə tərcüməsinin olmaması faktını açıqladı və elan olundu ki, Rusiya Federasiyası Mərkəzi Seçki Komissiyası ekspert qrupunun mənfi rəyi ilə razılaşaraq, Rusiyanın ÜTT-yə daxil olması ilə bağlı ölkədə referendumun keçirilməsini qeyri-mümkün hesab edir. Həmçinin, qeyd olunurdu ki, Rusiyanın ÜTT-yə daxil olması haqqında protokol ÜTT-nin rəsmi dillərində: ingilis, fransız və ispan dillərində imzalanmışdı. Ərizələr ingilis dilində tərtib edilmişdi və ÜTT-nin rəsmi dili olmadığı üçün protokol Rusiyanın dövlət dili olan rus dilində imzalanmamışdır. Bunlarla əlaqədar olaraq, Rusiya Federasiyasının vətəndaşının doğru seçim etmək üçün həmin şərtlərin və öhdəliklərin müddəaları ilə tanış olmaq imkanının olmaması Rusiya Federasiyası xalqının həqiqi iradəsinin referendumda təhrif olunma ehtimalını yaratdığı qeyd edilirdi. Məsələ ilə bağlı yalnız iki il sonra razılıq əldə ediləndən sonra tərcümə həyata keçirildi.

Bunun ardınca, Tutsinq tezislərinin göstərişlərinə zidd olaraq, Avropa dillərinin və mədəniyyətlərinin öyrənilməsində qarşılıqlı azalma müşahidə olunur: *"... son bir neçə ildə Bilefelddə, Müstəqil Berlin Universitetində, Mannheymdə, Marburqda, Rostokda, Frankfurt-Maynda və Erlanqendə slavyan filologiyası kafedraları bağlanmışdır və ya bağlanmaqdadır. İlin sonunda slavyan dillərinin tarixinin və Bibliya tərcümə ənənəsinin öyrənilməsi üzrə tanınmış Bonn Slavistika mərkəzi də bağlanacaq..."* (Жданова, 2013: 153). Eləcə də, Rusiyada alman, Almaniyada rus dilini öyrənənlərin sayı getdikcə azalmaqdadır.

Azərbaycanda da Azərbaycan dilinin qloballaşma şərtlərinə adaptasiya edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir (https://president.az/az/articles/view/7744). Proqram Azərbaycan dilinin istifadəsinə və tətbiqinə dövlət qayğısının artırılması, ondan qloballaşmanın tələblərinə uyğun istifadə edilməsi, dilçilik sahəsində tədqiqatların köklü surətdə təkmilləşdirilməsi və sair məsələləri əks etdirir.

Proqramda dilçilik sahəsində kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi, ali məktəblərdə "nitq mədəniyyəti" ilə bağlı fənlərin tədrisinin tətbiqi, dövlət idarəçiliyində və KİV-də Azərbaycan dilindən düzgün istifadə və müvafiq kadrların hazırlanması ilə bağlı maarifləndirici tədbirlərin təşkili nəzərdə tutulur. Televiziya şirkətlərində müvafiq şuraların, beynəlxalq standartlara əsaslanan milli terminoloji sistemin yaradılması, Azərbaycan dilinin yeni orfoqrafiya, izahlı, frazeoloji və terminoloji, tərcümə lüğətlərinin hazırlanması və sair zəruri məsələlərin həlli bu sərəncamdan irəli gələn məqamlardır. Həmçinin, Azərbaycan dilinin dövlət dili kimi ümumi məlumat bazasının hazırlanması, küçə adlarında, reklam lövhələrində dildən qeyri-düzgün istifadə hallarının qarşısının alınması üçün tədbirlərin həyata keçirilməsi və bu kimi hallara operativ reaksiya verilməsi üçün "Qaynar xətt"in yaradılması, idxal edilən mallarla bağlı Azərbaycan dilində izahlı yazıların verilməsi nəzərdə tutulur. Bunlardan əlavə, türk dillərinin müqayisəli təhlili istiqamətində işlərin gücləndirilməsi, ortaq əlifba, terminologiya və ədəbi dil ilə bağlı birgə layihələrin həyata keçirilməsi məsələləri də diqqət mərkəzindədir.

Bu və bu kimi digər əhəmiyyətli qərarlar və sərəncamlar Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsini təmin etmək, Azərbaycan dilinə maraq göstərən şəxslər üçün təlimin əlçatanlığını artırmaq və tədris prosesini asanlaşdırmaq məqsədi daşıyır.

Ümumiyyətlə, milli dil maddi və mənəvi irsin qorunub saxlanması və inkişaf etdirilməsi vasitəsidir. Həqiqət bundan ibarətdir ki, insan həyatının bütün sahələrində dəyişikliklərin baş verdiyi qloballaşan dünyada yaşayırıq və dil bu proseslərin "güzgüsüdür", ona görə də daim dəyişikliyə mə-

ruz qalır. Respublikamızda Azərbaycan dilinin istifadəsinin azalması, nitqin jarqonlaşdırılması, digər dillərin vüsət alması, mədəniyyətin kütləviləşməsi, ədəbi dil normalarına əməl edilməməsi ilə bağlı kifayət qədər faktlar mövcuddur. Bu prosesi zəiflətmək üçün mövcud vəziyyəti "nəzarətsiz" qoymaq olmaz və bu məqsədlə sistemli dil siyasətinin həyata keçirilməsinə ehtiyac vardır və bu sahədə cəmiyyəti "mənəvi qida" ilə təmin edən əsas vasitənin – mediatizasiyanın (medianın, KİV-in) rolu əvəzsizdir: *"... mediatizasiya – xüsusi mediya koqniotipləri (fərdin qlobal informasiya məkanı ilə qarşılılqlı təsiri nəticəsində təzahür edən idrak və reallığı dərketmənin koqnitiv strukturları) dünya xəritəsinin yaradılmasında iştirak edən müxtəlif media vasitələrinin köməyilə fərdlərin təfəkkürünə qlobal təsir prosesi və onun nəticəsi vasitəsilə müasir dünya quruculuğunun mühüm əlamətlərindəndir"* (Allahverdiyeva, 2021: 38).

Dil siyasətindən irəli gələn problemlərin obyekt müxtəlifliyi, çoxluğu və dinamizmi ilə səciyyələnən dili dəyişmiş şərait və formaları prizmasından dərk etmək lazımdır. Bundan əlavə, qloballaşmanın müxtəlif müvəkkilləri sırasında dil və onun inkişaf tendensiyalarına baxışların uyğunsuzluğu, hadisələr və onların linqvistik inikası da nəzərə alınmalıdır və qeyri-milli dillərin mühafizəsi və saxlanması üzrə beynəlxalq təcrübə ümumiləşdirilməlidir. Dillərin mühafizəsi sahəsində yeni qeyri-institusional hadisələr elmi təsbitini gözlədiyi bir vaxtda dil siyasətinin vəzifələrini onlarla əlaqələndirmək lazımdır. Bütün bunlar dil siyasətinin nəzəri və metodoloji əsaslarının müvafiq olaraq yenilənməsi, habelə dil siyasəti sahəsində ixtisaslaşmış sosiolinqvistlərin hazırlanması üçün tədris-metodiki bazanın yaradılması zərurətini ifadə edir. Qloballaşma problemi ilə üzləşmiş ölkələrin (ilk növbədə, dilləri yüksək kommunikativ statusa malik olan) dil siyasətini qurarkən digər ölkələrin dil qanunlarının təhlili və qloballaşma şəraitində dil qanunvericiliyinin dinamikasını nəzərdən keçirməsinə ehtiyac vardır.

Elmi ədəbiyyatda qloballaşmanın dillərin fəaliyyətinə qarşı artmaqda olan təsirinə tənqidi münasibət qeyd olunur. Bu, daxili dil siyasətinin tətbiqi ilə bağlı hələ də aydın olmayan bir sıra böyük layihələrin və əsərlərin meydana çıxması ilə bağlıdır. Bu əsərlər milli dil siyasəti məsələsinə (Phillipson, 2013; Phillipson, 2004; Phillipson, 1992) və linqvistik ideologiya və linqvoekologiya problemlərinin araşdırılmasına (Globalization and language vitality: perspectives from Black Africa, 2008) həsr olunmuşdur. Təəssüf doğuran haldır ki, beynəlxalq təşkilatlarda dillərin fəaliyyətinin aktual problemlərinə həsr olunmuş əsərlər və dil siyasətinin norma və vəzifələri haqqında təsəvvürləri dəyişdirən bir sıra digər mühüm layihələr hələlik kifayət qədər tanınmır.

Nəhayət, xaricdə və eləcə də ölkə daxilində siyasi və akademik mühitdə anti-milli diskursa, məsələn, Rusiyada İ.Yakovenkonun irqçi ideyaları kimi, müqavimət göstərmək zərurətinə cavab verən elmi arqumentasiyanın hazırlanmasına ehtiyac vardır. 2014-cü ilin əvvəlində baş vermiş Ukrayna hadisələri dilin ideoloji və siyasi mübarizə vasitəsi kimi rolunu sübut etdi - o zaman prezidenti devirən qüvvələrin ilk addımlarından biri dövlət dili siyasəti haqqında qanunu ləğv etmək cəhdi olmuşdu, rus dilinə və digər dillərə isə regional status verilmişdi. Bir sıra keçmiş Sovet respublikalarında (Latviya, Litva və s.) rus dilinin ingilis dili ilə yerdəyişməsini "demokratikləşmə və azadlığın" təzahürü kimi qiymətləndirən bir sıra xarici konsepsiyaların aşkar ideoloji qərəz səciyyəsi daşıması məsləyə digər bir nümunədir.

Nəticə.

Qeyd edilənlərdən belə bir nəticə hasil etmək olar ki, sürətlə baş verən miqrasiya prosesləri, sosial qrupların diasporlaşması və etnikləşməsi, dil vasitəsilə kommunikasiyanın intensivləşməsi, aparıcı dillərdə danışanların sosial bazasında baş verən dəyişikliklər, bu bazada qeyri-bərabərliyinin artması və onun "hibridləşmə"si qlobal və milli dil siyasətinə bilavasitə təsir edən faktorlardır.

Beləliklə, dil siyasətinin tədqiqi zamanı artan linqvistik refleksiyalar, dilə yeni sosial-fəlsəfi yanaşma, "postmilli dünyada" dilin rolu və yeri, eləcə də bu məsələnin siyasi səciyyə daşıması nəzərə alınmalıdır. Avropanın aparıcı dillərini qorumaq üçün həyata keçirilən kortəbii-qeyri-institusional-tədbirlərin və vətəndaşların intuitiv tələşlarının artması isə onların ana dillərinin mövcud vəziyyəti ilə əlaqədardır.

Yeni dil siyasətinin işlənib hazırlanması prosesində metodoloji baxımdan mühüm əhəmiyyət kəsb edən məqam qlobal ingilis dilinin xaricidilli kommunikativ məkanı zəbt edərək nəinki hədəf

dilin leksik tərkibini və kommunikativ normalarını dəyişdirməsidir, eyni zamanda onun konseptuallaşma üçün ideoloji vektor təyin etməsi, proseslərin və hadisələrin, mədəniyyət və dəyərlər istiqamətində baş verən transformasiyaların katalizatoruna çevrilməsdir.

Aparılmış təhlil onu göstərir ki, qloballaşma dövründə insan fəaliyyətinin bütün sahələri, o cümlədən dil dəyişikliklərə məruz qalır. Bu səbəbdən dövlətlərin həm daxili, həm də xarici məkanda sistemli, əhatəli və yaxşı planlaşdırılmış dil siyasətinin həm təsbit olunmasına, həm də həyata keçirilməsinə ehtiyac vardır. Bu siyasət bilavasitə ictimai təşkilatlar, nizamnamələr, irimiqyaslı aksiyalar və media vasitəsilə həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Allahverdiyeva, A.M. (2021). Televiziya xəbər diskursunun ekstralinqvistik və linqvistik təsviri. Bakı: Mütərcim.
2. Гриценко, Е.С. (2011). Язык и безопасность в контексте глобализации // Власть. 2, № 11, с.9-11.
3. Гриценко, Е.С., Кирилина, А.В. (2011). «Язык и глобализация» в контексте лингвистического образования: конструктивистский подход // Высшее образование в России. № 3, с.69-75.
4. Жданова, В. (2013). Величие и... немощь. // Вопросы психолингвистики. № 1 (17), с.152-154.
5. Караулов, Ю.Н. (1991). О состоянии русского языка современности / Доклад на конф. «Русский язык и современность. Проблемы и перспективы развития русистики» и материалы почтовой дискуссии). Москва: Институт языкознания РАН
6. Кирилина, А.В. (2013). Лингвофилософская рефлексия в эпоху глобализации // Вопросы психолингвистики. № 2 (18),.с.36-45.
7. Кирилина, А.В., Гриценко, Е.С., Лалетина, А.О. (2012). Глобализация в аспекте лингвис тики // Вопросы психолингвистики. № 1, с.18-37.
8. Мустайоки, А. Разновидности русского языка: анализ и классификация // Вопросы языкознания. 2013, № 5, с.3–27
9. Швейцер А.Д., Никольский, Л.Б. (1978). Введение в социолингвистику. Москва: Высшая школа.
10. Ammon, U. (2010). World languages: trends and Futures // The Handbook of Language and Globalization. Blackwell Publishing Ltd.
11. Braselmann, P. (2004). Language Policies in East and West. National Language Policies as a Response to the Pressures of Globalization // Globalization and the future of German / Berlin; Mouton de Gruyter.
12. Fairclough, N. (2006). Language and Globalization. Routledge.
13. Globalization and language vitality: perspectives from Black Africa. (2008). Continuum International Publishing Group Ltd.
14. Hüppauf, B. Globalization (2004) – Threats and Opportunities // Globalization and the future of German. Berlin: Mouton de Gruyter.
15. Phillipson, R. (2013). Colonialism and Language Policy and Planning // The Encyclopedia of Applied Linguistics. Hoboken, N.J. John Wiley & Sons Ltd.
16. Phillipson, R. (2004). English as Threat or Resource in Continental Europe // Globalization and the future of German. Berlin: Mouton de Gruyter.
17. Phillipson, R. (1992). Linguistic Imperialism. Oxford University Press.
18. The Handbook of Language and Globalization. (2010). D.Blackwell Publishing Ltd.
19. Tutzinger Thesen, Erarbeitet auf der Tagung “Euro-Deutsch” des Deutschen Germanistenverbandes in und mit der Evangelischen Akademie Tutzing am 3./4.6.1999: http://www. ger - manistenverband.de/aktiv/tutzing.html.
20. https://president.az/az/articles/view/7744

Айтан Аллахвердиева

Глобализация и языковая политика

Резюме

В статье рассматривается влияние и последствия современного процесса глобализации на формирование и реализацию языковой политики. В нем подчеркивается настоятельная необходимость разработки адекватной языковой политики для защиты статуса и целостности языков в глобализированном мире. В статье освещены общие тенденции развития европейских языков под влиянием современного английского языка и колоссальной миграции.Также указываются проглобалистские и антиглобалистские тенденции в академических и популярных дискурсах развития языка и упоминается появление нового подхода к языковой политике – философии языка.

Делается вывод, что с учетом процессов, порожденных глобализацией, и новых геополитических условий, существует необходимость обновления теоретических основ языковой политики. Таким образом, быстрые миграционные процессы, диаспоризация и этнизация социальных групп, интенсификация общения посредством языка, изменение социальной основы носителей ведущих языков, усиление неравенства в нем и его «гибридизация» являются факторами, непосредственно влияющими на глобальную ситуацию. и национальная языковая политика. Таким образом, при изучении языковой политики, растущей языковой рефлексии, необходимо учитывать новый социально-философский подход к языку, роль и место языка в «постнациональном мире», а также политическую природу этого вопроса. счет.

Ключевые слова: *языковая политика, глобализация, новая языковая модель, языковой суверенитет.*

Aytan Allahverdiyeva

Globalization and language policy

Summary

The article examines the impact and consequences of the modern globalization process on the formation and implementation of language policy. It emphasizes the urgency to develop an adequate language policy to guard the status and integrity of languages in the globalized world. The paper highlights the general trends in the development of European languages under the impact of modern English and colossal migration. It also indicates the pro-globalist and anti-globalist trends in academic and popular language development discourses and mentions the emergence of a new approach to language policy – the philosophy of language.

It is concluded that taking into account the processes created by globalization and the new geopolitical conditions, there is a need to update the theoretical foundations of language policy. Thus, rapid migration processes, diasporization and ethnicization of social groups, intensification of communication through language, changes in the social foundation of the the speakers of leading languages, the increasing inequality in it and its “hybridization” are the factors that directly affect the global and national language policy. Thus, during the study of language policy, growing linguistic reflections, a new socio-philosophical approach to language, the role and place of language in the “post-national world”, as well as the political nature of this issue should be taken into account.

Keywords: *language policy, globalization, new language model, linguistic sovereignty.*
Rəyçi: Filologiya elmləri doktoru, professor Fikrət Cahangirov.

Məqalənin verilmə tarixi: 19.11.2023.